# Azərbaycan Respublikasının Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü Komissiyası

**Müstəqil Mühasiblərin Rəyi**

31 dekabr 2003-cü il tarixinə

# AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASI

## MÜNDƏRİCAT

**Səhifə**


MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ 1

ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASININ BƏYANNAMƏSİ 5

ƏLAVƏ 2. MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN VƏ TƏRƏF OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI 6

ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI 7

Deloitte.

Deloitte & Touche MMC
4-cü mərtəbə
Ləndmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: +994 (0) 12 498 2970
Faks: +994 (0) 12 498 9805
www.deloitte.az

## MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ

Azərbaycan Respublikasının Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü ("MHŞT") Komissiyasına:

Biz, 1 saylı Əlavədə qeyd olunan Azərbaycan Respublikasının MHŞT Komissiyasının (bundan sonra "Komissiya") Bəyannaməsinin yoxlamasını həyata keçirdərək müəyyən etdik ki, 31 dekabr 2003-cü il tarixdə bitən il üzrə Azərbaycan Respublikası hökumətinin (bundan sonra "Hökumət") Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Şirkətlərdən (bundan sonra "Şirkətlər") aldığı ödəniş/daxilolmaların cədvəli MHŞT Komissiyası, 2 saylı Əlavədə qeyd olunan Azərbaycan Respublikasında Mineral Ehtiyatların Hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və 3 saylı Əlavədə göstərilən qeyri-hökumət təşkilatları arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT Komissiyası bəyannaməyə görə cavabdehdir. Bizim məsuliyyətimiz, apardığımız yoxlamaya əsaslanaraq bəyannaməyə dair rəy bildirməkdən ibarətdir.

Növbəti paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamamızı "Əminlik Yoxlamaları Üzrə Beynəlxalq Standarta" uyğun olaraq həyata keçirdik və müvafiq olaraq Azərbaycan Respublikasının MHŞT Komissiyasının bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və müəyyən hallarda zəruri hesab etdiyimiz bu növ digər prosedurları yerinə yetirdik. Hesab edirik ki, apardığımız yoxlama nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

Komissiyanın Bəyannaməsini yoxlamaq üçün əldə etdiyimiz məlumatlar Anlaşma Memorandumuna tərəf olan Şirkətlərin təqdim etdiyi məlumatlardan və Komissiya vasitəsilə Hökumət tərəfindən alınmış bütün ödənişlərə/daxilolmalara dair təfsilatlı məlumatlardan ibarət idi. Yoxlamamız hökumət tərəfindən qəbul edilmiş bütün ödənişlərin/daxilolmaların və Şirkətlər tərəfindən aparılan bütün ödəniş/daxilolmaların yoxlanılmasını əhatə etmirdi. Əgər Şirkətlər tərəfindən ödənişlər/daxilolmalar həyata keçirilibsə, lakin həm Hökumətin həm də Şirkətlərin təqdim etdiyi sənədlərdə bu öz əksini tapmayıbsa, bu halda bizim işimiz onları aşkar etmək üçün kifayət olmazdı.

**İcra olunmuş işlərin icmalı**

Azərbaycan Respublikasının MHŞT Komissiyasının Bəyannaməsini (Əlavə 1) yoxlamaq üçün, biz, 31 dekabr 2003-cü il tarixdə bitən il üzrə Hökumət tərəfindən qəbul edilmiş ödənişlər/daxilolmalar cədvəlini (bundan sonra "Hökumətin cədvəli") və 2 saylı Əlavədə göstərilən (AM tərəf olan) Şirkətlərin hazırladığı cədvəllər ilə ("Şirkətlərin cədvəli") müqayisə etdik. Yuxarıda qeyd olunan cədvəllər arasındakı fərqləri müəyyənləşdirmək məqsədilə şəraitdən asılı olaraq zəruri hesab etdiyimiz prosedurları həyata keçirtdik. Əldə etdiyimiz nəticələr aşağıda təqdim olunmuşdur:

**Mineral Ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin hasilatındakı dövlət payı (xam neft)**

| | |
|---|---|
| Hökumətin cədvəli | 6.6 milyon barel |
| Şirkətlərin cədvəli | 5.9 milyon barel |

Şirkətlərin cədvəlinə daxil olmayan 0.7 milyon barel xam neft AM-na tərəf olmayan mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkət tərəfindən Hökumətə ötürülmüş neftin həcmini əks etdirir. Bu neft yatağında əməliyyat şirkəti olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ("ABƏŞ") ("BP") təsdiqini almaqla biz Hökumətə ayrılan ümumi gəliri təsdiq etdik.

**Mineral Ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin hasilatındakı dövlət payı (qaz)**

| | |
|---|---|
| Hökumətin cədvəli | 794,881.0 min kub metr |
| Şirkətlərin cədvəli | Sıfır |

Yuxarıdakı cədvələ 794,881 min kub metr həcmində daxil edilən qaz mineral ehtiyatların hasilatı sənayesində çalışan iki şirkət tərəfindən (şirkətlərdən biri "AM"-na tərəfdir, digəri isə tərəf deyildir) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə ("ARDNŞ") 765,061 min kub metr həcmində ötürülmüş qazdır. Biz bu şirkətlərdən məbləğlərin təsdiqini əldə etdik və ARDNŞ 1,022,380 min kub metr həcmində qazın bu şirkətlər tərəfindən ARDNŞ-nə ötürdüyünü təsdiqlədi. ARDNŞ 257,319 min kub metr həcmində yaranmış fərqi ARDNŞ-in neft hasilatı prosesində istifadə etdiyi qazın miqdarı və qazın emalı prosesində texnoloji itkilər kimi izah etmişdir.

AM-na tərəf olmayan lakin mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkət tərəfindən ötürülmüş qazın həcmi Şirkətlərin cədvəlinə daxil edilməmişdir və AM-na tərəf olan, mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkət AM-in tələblərinə əsasən bu məbləğin hesabatda əks etdirilməli olduğundan xəbərsiz olduğu üçün məbləği hesabatına daxil etməmişdir. Aldığımız məlumata görə bu məbləğ gələcək hesabat dövrlərində Şirkətlərin cədvəlinə daxil ediləcəkdir.

**Hökumətə mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkətlərdən digər daxilolmalar**

***Royaltilər (Dağ-mədən yataqlarının hasilatı üzrə vergi)***

| | |
|---|---|
| Hökumətin cədvəli | Sıfır |
| Şirkətlərin cədvəli | 31.4 milyon ABŞD |

Şirkətlərin cədvəlinə daxil edilən bu məbləğin AM əsasında hesabat edilməsi tələb olunmadığından məbləğ Hökumətin cədvəlinə daxil edilməmişdir. Bu yoxlanılan sənədlər vasitəsilə müəyyənləşdirilmiş və təsdiq olunmuşdur.

*Akr hesabı haqlar*

| | |
|---|---|
| Hökumətin cədvəli | 19.3 million USD |
| Şirkətlərin cədvəli | 17.0 million USD |

Şirkətlərin cədvəlinə daxil olmayan 2.3 milyon ABŞD həcmində akr hesabı haqq AM-na tərəf olmayan lakin mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkətlər tərəfindən Azərbaycan Respublikasının Dövlət Neft Fonduna ("ARDNF") edilmiş ödənişlərdir. Biz, ARDNF tərəfindən təqdim olunan bank hesabatlarını yoxlamaqla bu məbləği təsdiq etdik.

*Nəqletmə rüsumları*

| | |
|---|---|
| Hökumətin cədvəli | 12.9 milyon ABŞD |
| Şirkətlərin cədvəli | 10.2 milyon ABŞD |

Şirkətlərin cədvəlinə daxil olmayan 2.7 milyon ABŞD məbləğində nəqletmə rüsumları AM-na tərəf olmayan, mineral ehtiyatların hasilatı sahəsində çalışan iki şirkət tərəfindən ödənilmiş məbləğdir. Biz bu yataqda əməliyyat aparan ABƏŞ-dən təsdiqləmə almaqla bu məbləğləri təsdiq etdik.

***Müqavilənin şərtlərinin yerinə yetirilməməsi ilə bağlı kompensasiya***

| | |
|---|---|
| Hökumətin cədvəli | 40.5 milyon ABŞD |
| Şirkətlərin cədvəli | 15.6 milyon ABŞD |

Şirkətlərin cədvəlinə daxil olmayan 23.4 milyon ABŞD vəsait AM-na tərəf olmayan, mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkət tərəfindən aparılmış ödənişdir. Biz bu ödənişi ARDNŞ-dən aldığımız bank sənədləri ilə yoxladıq. 1.5 milyon ABŞD məbləğində qalıq AM-na tərəf olan, mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkətlərdən birinin səhv hesabat etməsi nəticəsində yaranmışdır. Daha sonra, həmin şirkət bu məbləği daxil edərək düzəliş edilmiş hesabatı təqdim etmişdir.

**Mineral Ehtiyatların hasilatı sənayesində çalışan yerli şirkətlərin hasilatındakı dövlət payı (xam neft)**

| | |
|---|---|
| Hökumətin cədvəli | Sıfır |
| Şirkətlərin cədvəli | 0.2 milyon barel |

Mineral ehtiyatların hasilatı sənayesindəki iki yerli şirkətin bazar qiymətləri ilə ARDNŞ-nə satdıqları 0.2 milyon barel həcmində neft AM-un mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli şirkətlər üçün müəyyənləşdiyi tələblərə uyğun olmayaraq, səhv hesabat edilmişdir.

**Yerli şirkətlərdən hökumətə digər daxilolmalar**

***Digər vergilər***

| | |
|---|---|
| Hökumətin cədvəli | 914.8 mlrd manat |
| Şirkətlərin cədvəli | 920.9 mlrd manat |

Mineral ehtiyatların hasilatı sahəsində çalışan bir şirkət fiziki şəxslərə hesablanmış gəlir vergisi məbləğini yuxarıdakı hesabatlarına daxil etmişdir. AM-nun tələblərinə əsasən şirkətlər öz hesabatlarına fiziki şəxslərə hesablanmıs gəlir vergisi məbləğini daxil etməməlidirlər.

**Rəy**

Hökumət tərəfindən alınmış kimi hesabat olunan 794,881 min kub metr həcmində qaz mineral ehtiyatların hasilatı sahəsində çalışan iki xarici şirkət tərəfindən 765,061 min kub metr həcmində alınmış qazdır. Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən ("ARDNŞ"), mineral ehtiyatların hasilatı sahəsində çalışan şirkətlərdən alınmış təsdiqləmələrə əsasən Hökumət bu iki şirkətdən 1,022,380 min kub metr həcmində qaz almışdır.

Hökumətin yuxarıda qeyd olunan şirkətlərdən 1,022,380 min kub metr həcmində aldığı qazı hesabat etdiyi halda əvvəlki paraqrafda açıqlanan məsələlərin təsiri və Şirkətlər tərəfindən aparılmış bütün ödənişlərin/daxilolmarın, Hökumət tərəfindən qəbul edilmiş ödənişlərin/daxilolmarın yoxlamasını apardığımız təqdirdə tələb edilə bilən hər hansı düzəlişlər (əgər olarsa) istisna olmaqla, bu hesabat üzrə yoxlamamıza istinad edərək bizim rəyimizcə, 31 dekabr 2003-cü il tarixdə bitən il ərzində qəbul olunmuş ödənişlərin/daxilolmarın cədvəli ilə bağlı Azərbaycan Respublikasının MHŞT Komissiyasının bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmış, bütün əhəmiyyətli hallarda düzgün əks olunmuşdur.

Bu hesabat AM-nu imzalayan tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur və hesabat AM-da qeyd olunmayan məqsədlər və ya digər tərəflər üçün istifadə edilməməlidir.

Deloitte & Touche

15 mart 2005-ci il

## ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASININ BƏYANNAMƏSİ

**AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ KOMİSSİYASININ ("MHŞT") BƏYANNAMƏSİ**

31 dekabr 2003-cü il tarixdə bitən il üzrə Azərbaycan Respublikası hökumətinin (bundan sonra "Hökumət") Mineral Ehtiyatların Hasilatı sahəsində fəaliyyət göstərən yerli və xarici şirkətlərdən (birlikdə "Şirkətlər" adlanacaq) aldığı ödəniş və daxilolmaların cədvəli MHŞT Komissiyası, 2 saylı Əlavədə qeyd olunan Azərbaycan Respublikasında Mineral Ehtiyatların Hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və 3 saylı Əlavədə göstərilən qeyri-hökumət təşkilatları arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır.

MHŞT Komissiyasının Sədri 15.03.05

## ƏLAVƏ 2. MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN VƏ TƏRƏF OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI

### Anlaşma Memorandumuna tərəf olan şirkətlər

BP Exploreyşn (Kaspian Sea) Limited
Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ")
Total E&P Azerbaijan B.V
ITOCHU Oil Exploration (Azerbaijan) Inc.
Statoyl
Turkish Petroleum A.O.,
Komonvels Neft və Qaz
Ekson Azərbaycan Limited
KonokoFilips
Amerada Hess (ACG) Limited
Devon Energy Caspian Corporation
Lukoyl Oversis
Unocal Xəzər
Şengli Oyl
Salyan Oyl Limited
Qarasu Əməliyyat Şirkəti
Shell Azerbaijan Exploration and Production,
Middle East Petroleum
Ənşad Petrol BM
Şirvan Oyl BM
Azgerneft BM

### Anlaşma Memorandumuna tərəf olmayan şirkətlər

Chevron Overseas Petroleum Azerbaijan Limited,
Agip,
Inpex,
Yaponiya Azərbaycan Neft Şirkəti. Ltd ("JANŞ"),
Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ)[1]

[1] ABƏŞ AŞG yatağında əməliyyat aparan şirkətdir. ABƏŞ-nin partnyorları BP Exploration (Caspian Sea) Limired, Exxon Azerbaijan Limited, Statoil, İnpex, ARDNŞ, Devon Energy Caspian Corporation, İtochu Oyl Exploration (Azerbaijan) İnc, Amerada Hess (AÇG) Limited, Turkish Petroleum A.O, Unokal Xəzərdir.

## ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI

Gənc Hüquqşünaslar Birliyi
İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi
Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Milli Qrupu
Gəncə Kəpəz Bələdiyyəsi
Beynəlxalq Ekoenerji Akademiyası
İctimai Maliyyə Monitorinq Mərkəzi
Vətəndaş Təşəbbüsləri Mərkəzi
Humanitar Tədqiqatlar Mərkəzi
Aqroeco Konsaltinq Mərkəzi
Yaşıllar hərəkatı
İqtisadi Tədqiqatlar Mərkəzi
"Buta" Humanitar Uşaq Fondu
Ekoleks Təşkilatı
"Çevrə" Davamlı İnkişafa Yardım İctimai Birliyi
Neftçilərin Hüquqlarının Müdafiəsi Komitəsi
Multimedia İnformasiya və Texnologiya Mərkəzi
"Ekspert" ekonomik jurnalı
"Bilik" Gəncə
Vətəndaşların əmək hüquqlarının müdafiəsi liqası
Gəncə Uşaq Fondu
Azərbaycan Maarifçi Gənclər Təşkilatı Sabunçu şöbəsi
Demokratik İslahatlar uğrunda Cəmiyyət
Tacirlər və İstehsalçılar Birliyi
"Himayədar"
Vençur layihələri iştirakçıları Assosiasiyası
IHQMB
HVA Regional bölməsi (Gəncə)
İnsan Hüquqları XXI əsr-Azərbaycan Fondu
Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi